# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**2025-ci il: Heydər Əliyev Fondunun imza atdığı möhtəşəm layihələr**

3

HEYDƏR ƏLİYEV FONDU


№ 001 (7411)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

6 yanvar 2026-cı il.
Qiyməti 1 manat


## "Dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur, güc var, əməkdaşlıq var, müttəfiqlik var"

Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib



2

# Cənubi Qafqaz üçün 2026-cı il - BİZİ NƏ GÖZLƏYİR?




6

### Halsızlıq və yüksək hərarət: bu dəfə fərqli virus dalğası



5

### Maduronun "oğurlanması" dünyada xaos və anarxiya yarada bilər



7

### Ömrü qısaldan qidalar açıqlandı - siyahıda nələr var?



8

## Uşaqlarda təhsilə maraq niyə azalıb?



6

## "Tramp administrasiyası ABŞ-Azərbaycan münasibətlərində praqmatik yanaşma formalaşdırır"



5

# “Dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur, güc var, əməkdaşlıq var, müttəfiqlik var”

## Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

**“Keçən il doğrudan da tarixi il sayıla bilər. Çünki məhz keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq.” Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bildirib.**

”Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik”, - deyən dövlətimizin başçısı Azərbaycanın döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə siyasi müstəvidə və dünyanın bir nömrəli ofisində siyasi möhür vurulduğunu bildirib. ”Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq, bəlkə də birincilər sırasında olacaq. Bu nöqteyi-nəzərdən keçən ili ölkəmiz üçün, xalqımız üçün çox uğurlu və tarixi il saymaq olar və əminəm ki, bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq”, - deyə Azərbaycan Prezidenti qeyd edib.

Dövlətimizin başçısı daha sonra bəyan edib ki, Azərbaycan-Amerika münasibətlərinin kontekstində də 2025-ci il tarixi il sayıla bilər. Amerikadakı anti-Azərbaycan qüvvələrin, erməni lobbisinin fəaliyyəti nəticəsində qəbul olunan 907-ci düzəlişin ABŞ ilə Azərbaycan arasında genişmiqyaslı münasibətlərin qurulmasına imkan vermədiyini qeyd edən dövlətimizin başçısı artıq bu məhdudiyyətin aradan qaldırıldığını vurğulayaraq deyib: ”Bunun təbii ki, iki əsas səbəbi var: Birincisi, Azərbaycan-Ermənistan müharibəsinin rəsmən sona çatması, ikincisi, Amerikada Prezident Tramp administrasiyasının hakimiyyətdə olması. Bu administrasiya çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir, Prezident başda olmaq şərti ilə”.

Prezident İlham Əliyev özünün də iştirakı ilə Ağ Evdə keçirilən mərasimdə Prezident Donald Trampın 907-ci düzəlişə son qoymasının rəmzi məna daşıdığını ifadə edib.



**"D-8 təşkilatına üzv olmağımızı çox böyük nailiyyət kimi qiymətləndirirəm"**



**Prezident İlham Əliyev: "2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu"**

Dövlətimizin başçısı qeyd edib ki, Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərib. Təkcə bu fakt kifayətdir ki, hər kəs anlasın, nə üçün bizim, həm Obama-Bayden, həm Bayden-Blinken administrasiyası ilə münasibətlərimiz istənilən səviyyədə deyildi. ”Obama-Bayden administrasiyası ilə əlaqələr kifayət qədər məsafəli idi, Bayden-Blinken administrasiyası isə bizim əlaqələrimizi faktiki olaraq böhrana salmışdı”, - deyə dövlətimizin başçısı bildirib.

**"907-ci düzəlişin aradan qaldırılmasını dayandırması Bayden-Blinken administrasiyasının nə qədər naşükür və nankor olmasını göstərir"**

”Biz uzun illər çalışırdıq ki, bu 907-ci düzəlişi ləğv etdirək. Ancaq bu, çox çətin proses idi və sadəcə olaraq, 11 sentyabr 2001-ci il hadisələrindən sonra Amerika Prezidenti bu düzəlişi öz imzası ilə aradan qaldırdı və bu, 2024-cü ilə qədər davam edirdi.”

Amerikanın Əfqanıstandakı missiyası başa çatandan sonra Bayden administrasiyasının bu düzəlişin aradan qaldırılmasını dayandırdığını vurğulayan Azərbaycan Prezidenti qeyd edib: ”Yəni artıq Azərbaycan onlara lazım deyildi, Əfqanıstandakı missiya başa çatmışdı və beləliklə, bu düzəliş yenidən tətbiq edilmişdi. Əlbəttə, bunun bizim iqtisadi inkişafımıza heç bir təsiri yoxdur və ola da bilməz. Ancaq bu, Bayden-Blinken administrasiyasının nə qədər naşükür və nankor olmasını bir daha göstərir”.

”D-8 təşkilatına üzv olmağımızı çox böyük nailiyyət kimi qiymətləndirirəm. Çünki bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir.”

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bildirib.

Müsəlman dünyasının ən böyük ölkələrini birləşdirən D-8 təşkilatın yeganə yeni üzvünün Azərbaycan olduğunu vurğulayan dövlətimizin başçısı deyib: ”Bu təşkilatda birləşən ölkələrin ümumi əhalisi bir milyarddan, ümumi iqtisadiyyatı dörd trilyondan çoxdur. Azərbaycan nə əhali, nə iqtisadiyyat baxımından böyük ölkə sayıla bilməz. Bizim orada artıq rəsmən iştirakımız, əlbəttə ki, bizə olan hörmətin əlamətidir və bizim apardığımız müstəqil siyasətin nəticəsidir və dərhal biz fəal işlərə başladıq”.

Dövlətimizin başçısı daha sonra bildirib ki, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını, təhlükəsizliyini gücləndirməlidir. Türk Dövlətləri Təşkilatının Qəbələdəki Zirvə Görüşündə Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsi təklifini xatırladan dövlətimizin başçısı deyib: ”Hesab edirəm ki, buna da ehtiyac var. Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda, praktik nöqteyi-nəzərdən buna ehtiyac var”.

Prezident İlham Əliyev qeyd edib ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var.

# “Əldə olunmuş razılaşmalar tarixi əhəmiyyət daşıyır”

## *Azərbaycan Prezidenti İlham Əliyev ABŞ nümayəndə heyətini qəbul edib*



Prezident İlham Əliyev yanvarın 4-də ABŞ nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətində ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin üzvü, Oklahomadan respublikaçı senator Markveyn Mallin, Nümayəndələr Palatasının üzvü və həmin qurumun Gəlirlər Komitəsinin sədri, Missuridən respublikaçı Ceyson Smit, Nümayəndələr Palatasının və həmin qurumun Silahlı Qüvvələr Komitəsinin üzvü, Texasdan respublikaçı Ronni Cekson, Nümayəndələr Palatasının və həmin qurumun Gəlirlər Komitəsinin üzvü, Kaliforniyadan demokrat Cimmi Panetta daxildir.

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirən qonaqlar Bakıda gördükləri inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdıqlarını dedilər.

Qonaqlar ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdılar. Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın rolunu xüsusi vurğuladı. Azərbaycan Prezidenti regional sülh gündəliyinin irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini bildirdi. Dövlətimizin başçısı artıq Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin yaradıldığını deyərək, bu xüsusda Azərbaycanın neft məhsullarının Ermənistana ixrac edildiyini, həmçinin Qazaxıstan və Rusiyadan buğdanın Azərbaycan ərazisindən keçməklə Ermənistana ixracının həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından yeni imkanlar yaradacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı ”Azadlığa Dəstək Aktı”na ədalətsiz 907-ci düzəlişin ölkələrimiz arasında əlaqələrin bugünkü inkişafının mahiyyətinə uyğun olmadığını dedi. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Tramp tərəfindən bu düzəlişin fəaliyyətinin dayandırılmasını yüksək qiymətləndirərək, onun tamamilə ləğv edilməsi istiqamətində konqres üzvlərinin də bundan sonra səylərini davam etdirəcəyinə ümidvar olduğunu vurğuladı.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, siyasi, iqtisadi, enerji, müdafiə və müdafiə sənayesi, təhsil, informasiya texnologiyaları, süni intellekt və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Söhbət zamanı ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# 2025-ci il: Heydər Əliyev Fondunun imza atdığı möhtəşəm layihələr

Həyatımızın bütün sahələri ilə zəngin olan 2025-ci ilə vida söylədik. Yola saldığımız il yaddaqalan hadisələrlə həkk olundu. Biri digərini əvəzləyən hadisələr Azərbaycan ictimai-siyasi mədəni tarixinə silinməz iz saldı. Bu gün yarandığı zamandan etibarən, xalqımızın mənəvi sərvətinin və milli mədəniyyətinin təbliği və inkişafı istiqamətində mühüm işlər görən, ilk növbədə, Ümummilli Lider Heydər Əliyevin müdrikliyə əsaslanan həyat fəlsəfəsini, xalqa xidmət missiyasının əbədiyaşarlığını təmin edən mühüm ideoloji-humanitar mərkəz kimi fəaliyyət göstərən Heydər Əliyev Fondunun il ərizində gördüyü işlər vərəqləyəcəyik. Əhəmiyyəti ilə diqqətə çəkən hər bir görülən iş xalqın böyük məhəbbətini və etimadını qazanan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fodunun prezidenti Mehriban xanım Əliyevanın Ulu Öndər Heydər Əliyev ucalığını başlıca meyar götürməsindən, eləcə də Azərbaycanın birinci xanımının zəngin mənəvi və intellektual potensialından qaynaqlanır. Məhz bu cür mükəmməl fəaliyyətin məntiqi nəticəsi olaraq indi Heydər Əliyev Fondunun gördüyü işlərin sorağı dünyanın sayılıb-seçilən ölkələrindən, ən mötəbər beynəlxalq qurumların tribunalarından gəlir. Mehriban xanım Əliyeva Azərbaycanın ictimai-siyasi, mədəni həyatında gördüyü işlərin bir illik məsafəsinə diqqət yetirsək nə qədər möhtəşəm hadisələrin reallaşdığının bir daha şahidinə çevrilərik.

Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir. İllərdir ki, yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci Xanımı bu fəaliyyət özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: "Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir".

Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: "Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur". Bu yol həqiqətə, insanlığa, mərhəmətə aparan yoldur.

## "BU GÜN HEYDƏR ƏLİYEV FONDU QARŞISINDA YENİ VƏZİFƏLƏR DAYANIR"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Yarandığı zamandan bu günə qədər Fondun əsas məqsədinin, vəzifəsinin insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdən ibarət olduğunu diqqətə çatdırmışdır: "Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır".

2025 -ci ildə Azərbaycanda baş verən sıçrayışlarda, onun simasının gündən-günə dəyişməsində, dünyanın nüfuzlu dövlətləri sırasında layiq yer qazanmasında Mehriban xanım Əliyevanın fəaliyyəti, genişmiqyaslı layihələrinin müstəsna yeri və əhəmiyyəti var. Onun həyata keçirdiyi layihələr yerli əhəmiyyətli sosial problemlərin həllinə, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək məqsədi daşıyır. İnsanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım edir. Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, uşaq müəssisələrinin infrastrukturlarını, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək istiqamətində Fondun böyük mahiyyət daşıyan addımları Mehriban xanım Əliyevanın humanizm prinsiplərinə söykənir.

## DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN NÜMUNƏSİ

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətili işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

Fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq həyata keçirdiyi layihələri ilə təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Gördüyü işlərində təvazökarlıq göstərir. Mehriban Əliyeva həqiqətən, gördüyü işlərlə kimliyini, böyüklüyünü bu dünyada gördüyü işlərlə reallaşdırır. Məmləkətinə şərəf gətirən Mehriban xanım Əliyeva Azərbaycan qadını, Azərbaycan İnsanı obrazını yaradıb. Azərbaycan haqqında olan təsəvvür, insan haqqında olan təsəvvür Onun layihələri əsasında tamam fərqli bir şəkildə meydana çıxıb. Bütün dünyaya müstəqil dövlətdə yaşayan bir qadın obrazının lazımi şəkildə təqdiminə nail olub.

2025-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimi olub. Bu layihə həyata keçirilməzdən əvvəl Azərbaycan tərəfi ilə iki digər mühüm layihəni də icra edib.

Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sabiq prezidenti kardinal Canfranko Ravazi ölkəmizə səmimi və dərin dostluq telləri ilə bağlı olduğunu vurğulayaraq, Azərbaycana üç dəfə səfər etdiyini diqqətə çatdırıb, səfərlər çərçivəsində Prezident İlham Əliyev tərəfindən qəbul olunduğunu və məhz onun qərarı ilə Azərbaycan dövlətinin ən yüksək mükafatlarından birinə - "Dostluq" ordeninə layiq görüldüyünü qeyd edib. Canfranko Ravazi Birinci vitse-prezident Mehriban Əliyeva ilə səmimi dostluq və qarşılıqlı hörmət münasibətlərindən söz açaraq deyib: "Bu münasibətlər uzun illər ərzində formalaşıb, şəxsən mənə böyük və dərin təəssürat bağışlayıb. Təşkil etdiyimiz səfərlərdə Birinci vitse-prezidentin arxeologiya sahəsinə xüsusi bağlılığının şahidi olduq. Çünki səfərlər çərçivəsində bərpa olunan yerləri şəxsən özü ziyarət edirdi. Əlbəttə ki, onun dəstəyi sayəsində, Heydər Əliyev Fondunun göstərdiyi yardım nəticəsində bu gün katakombaların açılışında əməkdaşlığımızın yeni bir səhifəsini yazırıq. Görülmüş işlərə görə Birinci vitse-prezidentə dərin təşəkkürümü bildirirəm".

Azərbaycanın əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin birgə sülh, qarşılıqlı hörmət, tolerantlıq və harmoniya şəraitində yaşayan bir məkan olduğunu vurğulayan Mehriban Əliyeva deyib: "Bu gün bu prinsiplər həm bizim dövlət siyasətimizin əsasıdır, həm də həyat tərzimizdir. Əminəm ki, bugünkü mürəkkəb dünyada dövlətlərimiz arasında genişlənən əməkdaşlıq, dostluq əlaqələri bir nümunədir".

## Heydər Əliyev Fondunun dəstəyi ilə Ruanda məktəbi içməli su ilə təchiz olunub

Heydər Əliyev Fondu əksər Afrika ölkələri üçün bir nömrəli problem olan - içməli su ilə təchiz məsələsinə öz töhfəsini verib. Belə ki, Fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində Ruandanın Şərq əyalətinin administrativ mərkəzi Rvamaqana şəhər məktəbi içməli su ilə təchiz edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ruandaya səfəri zamanı Rvamaqana şəhər məktəbində olub. Heydər Əliyev Fondunun dəstəyi ilə məktəb binasının yerləşdiyi ərazidə su quyusu qazılaraq saatda 3 tona yaxın içməli suyun verilməsi təmin edilib. Bundan əvvəl sakinlər tələbatlarını təmin etmək üçün yağış suyundan asılı vəziyyətdə olublar. Məktəblə tanışlıq zamanı şagirdlər Azərbaycan haqqında daha geniş məlumat əldə edib, ölkəmizin ənənəvi təamlarını dadıblar.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA TARİXİ-DİNİ ABİDƏLƏRƏ YENİ HƏYAT

Fondun işğaldan azad olunan ərazilərdə tarixi-dini abidələrin təmir və bərpası ilə bağlı gördüyü işlər təqdirəlayiqdir. Bu ilin ən yaddaqalan hadisələrindən biri Ağdam rayonunun Qiyaslı kəndindəki tarixi məscidin binasının bərpadan sonra açılışıdır. Xatırladaq ki, 2021-ci il mayın 28-də Prezident İlham Əliyev Ağdama səfəri çərçivəsində Qiyaslı məscidində olub.

Ölkəmizdə ayrı-ayrı dinlərin məbədləri bütün dövrlərdə yüksək səviyyədə mühafizə olunub, məscid, kilsə və sinaqoqlar təmir və bərpa edilib. Azərbaycan xalqının qədim mədəniyyətinin təşəkkül tapdığı Qarabağ və Şərqi Zəngəzur əraziləri öz tarixi, maddi-mədəniyyət və dini abidələri ilə hər zaman zəngin olub. Təəssüf ki, 30 ilə yaxın davam edən işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrə qarşı vəhşiliklər törədilmişdir. İşğalın ən ağır fəsadlarından biri bəşəri əhəmiyyətə malik mədəni irsin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsidir. İlkin araşdırmalara görə, işğal dövründə 65 məscidin yerlə-yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə artmaqdadır. 44 gün davam edən müharibədə Müzəffər Azərbaycan Ordusunun təcavüzkar Ermənistanı məğlub edərək, işğaldan azad etdiyi Vətən torpaqlarında bu gün həyata keçirilən tikinti-bərpa işlərində Mehriban xanım Əliyevanın da həyata keçidiyi layihələr töhfəsini verməkdədir. Böyük Qayıdışın möhtəşəm olacağına əminik və bu işdə Mehriban Əliyevanın payı müstəsna olacaqdır. Artıq bu işlərin ilkin addımlarını və reallaşan layihələri görürük. Heydər Əliyev Fondu məscidlərin təmirini öz üzərinə götürüb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan M.P. Vaqifin büstü öz əvvəlki yerinə qaytarılıb. Görülən işlər kifayət qədərdir. Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük. Bu hər kəsi qürurlandırır.

Bu layihələrin miqyası geniş və əhatəlidir. Mehriban xanım Əliyeva hər zaman olduğu kimi, yola saldığımız 2025-ci ildə də möhtəşəm layihələrə imza atdı. Müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqla yanaşı, gənclərin hərtərəfli inkişafına diqqətlə yanaşaraq uşaq və yeniyetmələrdə idmana maraq aşılamaq, onları sağlam ruhda tərbiyə etmək istiqamətində müxtəlif layihələr də həyata keçirdi. Əlbəttə ki, bu Mehriban xanım Əliyevanın yalnız təhsillə bağlı həyata keçirdiyi layihələri yox, Qarabağımızda və Şərqi Zəngəzurda gerkələşdirdiyi layihələr də tarixin yaddaşına həkk olundu.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Zəfər salnaməsini şanlı tariximizə qızıl hərflərlə yazan müzəffər sərkərdə!

(4-cü yazı)

**"Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik"**

## Prezident İlham Əliyev



Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf edən Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xalqına Qələbəni bəxş etmiş müzəffər Orduya çevrilmişdir.

2003-cü ildən etibarən ordu quruculuğu məsələləri dövlət siyasətinin prioriteti kimi müəyyən olunmuşdur. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan ordusunu dünyanın ən güclü 50 ordusu sırasına yüksəltdi. Ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət ayrılıb. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir;

Azərbaycanda hərbi sənaye kompleksinin yaradılması ölkənin hərbi qüdrətini artırdı.

Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar- ümumilikdə 1000-dən çox çeşiddə hərbi təyinatlı məhsul istehsal olunur. Dünyanın aparıcı beynəlxalq sərgilərində hərbi məhsullarımız nümayiş olunur.

Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Silah və hərbi texnikaların satın alınması və hərbi məhsulların istehsalına dair bir sıra ölkələrlə müqavilələr imzalanaraq hərbi əməkdaşlıq əlaqələri genişləndirilib. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması daim diqqət mərkəzində-dir.

Bunun sayəsində Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müharibə nəticəsində 300-dən çox şəhər və kənd işğaldan azad edildi. Düşmən ağ bayraq qaldırdı, təslim oldu və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atmağa məcbur oldu. Ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir.

Noyabrın 10-da imzalanmış bəyanata əsasən noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr milli mətbuatımızın fəaliyyətinə istiqamət verdi. Müzəffər Ali Baş Komandanın müharibə ilə bağlı müsahibələri XXI əsr üçün yeni üslub, yeni model nitq strategiyası hesab edilə bilər. Müsahibələri real mübarizə və silah üsuluna çevirən Azərbaycan Prezidenti bu müharibədə də qalib gəldi. Həmin nitqlərdə gerçəklikdən doğan konkretlik, qətiyyət, iradə əsaslı şəkildə yer alırdı. Müzəffər Ali Baş Komandan verdiyi müsahibələrlə münaqişə ilə bağlı dünyanın fikrini dəyişdirməyə müvəffəq olmuşdur.

Fəxarət rəmzimiz üçrəngli, ay-ulduzlu dövlət bayrağımız sərhəddə dalğalandırıldı.

Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayının üzərində 23 aprel 2023-cü il tarixində "Laçın" sərhəd-buraxılış məntəqəsi quruldu. Bununla da Azərbaycan sərhədlərinin bütövlüyü təmin olundu.

Üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan 19 sentyabr 2023-cü ildə lokal xarakterli antiterror əməliyyatına başlamışdır. Bunun nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Antiterror əməliyyatı nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir.

Prezident İlham Əliyevin sözü və əməli birdir. 20 il bundan əvvəl Prezident seçilmiş İlham Əliyev doğma xalqına müraciət edərək söz vermişdi ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edəcək və ölkəmizin ərazi bütövlüyünü qoruyacaq. 15 oktyabr 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağını qaldırdı.

Müzəffər Ali Baş Komandanın təşəbbüsü əsasında Qələbə ilə bağlı orden və medallar təsis olundu. Vətən Müharibəsində qələbə münasibətilə "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin 15 yeni medal təsis olunub.

Həmin orden və medalların təsis olunması Qələbənin əbədiləşdirilməsinin və müharibə iştirakçılarına göstərilən ali diqqətin təzahürüdür.

Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Vətən müharibəsinin ümumilikdə 160 minə yaxın iştirakçısı müxtəlif orden və medallarla təltif olunub.

Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə Zəfər Günü təsis edilmişdir. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir.

Prezident İlham Əliyev 2024-cü il 19 sentyabr tarixində "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilir.

Xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında 2020-ci il 3 dekabr tarixində Sərəncam imzalamış, 2021-ci ildə Hərbi Qənimətlər Parkının, 2024-cü ildə Zəfər Parkının və 2025-ci ildə Zəfər muzeyinin açılışında iştirak etmişdir.

Yeri gəlmişkən, dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər.

Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında keçirilmiş Zəfər paradı keçirildi. Paradda yerli və xarici rəsmi qonaqlar, diplomatik korpusun nümayəndələri də iştirak etdilər. 2025-ci il noyabrın 8-də Qələbənin 5-ci ildönümünə həsr olunmuş möhtəşəm hərbi parad keçirildi.

(ardı olacaq)

***Elçin Bayramlı***

PORTRET

# Halsızlıq və yüksək hərarət: bu dəfə fərqli virus dalğası



*Son həftələr cəmiyyətdə qızdırma və kəskin halsızlıqla müşahidə olunan, lakin klassik qrip əlamətləri ilə müşayiət olunmayan bir yoluxma halı geniş yayılıb. Bir çox vətəndaş bu vəziyyəti "qrip" adlandırsa da, həkimlər bildirir ki, müşahidə olunan klinik mənzərə klassik influenza infeksiyasına tam uyğun gəlmir. Burun axıntısı, öskürək, boğaz ağrısı kimi tipik simptomların olmaması bu halın fərqli etiologiyaya malik ola biləcəyini göstərir. SİA mövzu ilə bağlı araşdırma edib.*

## Bu vəziyyət nə ola bilər? - Tibbi izah

*Virus mənşəli qızdırmalı infeksiya*

Mütəxəssislərin əsas ehtimalı budur ki, yayılmış hal qrip virusu deyil, digər respirator və ya sistemik viruslarla bağlıdır.

Bu tip viruslarda qızdırma (38-39°C), güclü halsızlıq, əzələ və baş ağrısı ön planda olur, lakin tənəffüs yollarına aid klassik simptomlar minimal və ya yoxdur. Bu viruslar çox vaxt adenoviruslar, enteroviruslar, bəzi parainfluenza olmayan respirator viruslar ola bilər.

## Post-viral sindrom və ya yüngül viral reaksiya

Bəzi hallarda xəstə əvvəllər yüngül virus keçirib, immun sistemin cavabı gecikmiş şəkildə ortaya çıxır. Nəticədə qızdırma, ümumi zəiflik, iştahsızlıq müşahidə olunur, amma aktiv infeksiya əlamətləri artıq yoxdur.

Bu hal xüsusilə stress altında olanlarda, yuxusuzluq yaşayanlarda, immun sistemi zəifləyən şəxslərdə daha çox görünür.

## İnflamatuar reaksiya - infeksiya olmadan

Bəzən qızdırma birbaşa virusdan deyil, orqanizmin iltihabi cavabından qaynaqlanır. Bu zaman CRP və digər iltihab göstəriciləri yüksələ bilər, amma konkret bakterial və ya qrip virusu aşkarlanmır. Bu hal temperatur dəyişiklikləri, mövsüm keçidləri, orqanizmin adaptasiya stresilə əlaqələndirilir.



## Qripdən fərqləndirən əsas cəhətlər

Klassik qripdə adətən kəskin öskürək, boğaz ağrısı, burun axıntısı, bəzən tənəffüs çətinliyi olur. Halbuki hazırda müşahidə olunan vəziyyətdə yalnız qızdırma və halsızlıq ön plandadır, tənəffüs sistemi simptomları ya yoxdur, ya da çox zəifdir. Bu səbəbdən həkimlər bunu "qripə bənzər olmayan virus infeksiyası" kimi qiymətləndirirlər.

## Antibiotik lazımdırmı?

Mütəxəssislər xüsusi vurğulayır ki, bu halların böyük əksəriyyəti virus mənşəlidir, antibiotiklərin istifadəsi yolverilməzdir. Antibiotik yalnız bakterial infeksiya sübut olunarsa, laborator və klinik göstəricilər əsasında təyin edilməlidir.

## Kimlər risk qrupundadır?

-uşaqlar,
-yaşlılar,
-xroniki xəstəliyi olanlar,
-immun sistemi zəif şəxslər.

Bu qruplarda qızdırma uzunmüddətli və ağır gedişli ola bilər.

## Həkimə nə vaxt müraciət edilməlidir?

-Qızdırma 3 gündən çox davam edərsə,
-39°C-dən yuxarı qalxarsa,
-halsızlıq gündəlik fəaliyyəti mümkünsüz edərsə,
-şüur bulanıqlığı, səpgilər, qusma qoşularsa.

Bu tip hallarda (qripə bənzəməyən, amma qızdırma və güclü halsızlıqla gedən virus infeksiyalarında) ev şəraitində əsas məqsəd orqanizmi yüngülləşdirmək, susuzlaşmanın və ağırlaşmanın qarşısını almaqdır.

## Qızdırmanın idarə olunması

Qızdırma 38-38.5°C-dən yuxarı qalxırsa, həkim məsləhəti ilə: Paracetamol istifadə oluna bilər. Aspirin uşaqlara qətiyyən verilməməlidir.

Qızdırma zamanı:
-Qalın geyimdən qaçın,
-Otağı tez-tez havalandırın

## Bol maye qəbulu (ən vacib məsələ)

-Su
-İlıq çaylar (çobanyastığı, adaçayı, zəif qara çay)
-Evdə hazırlanmış kompot
-Elektrolit məhlulları (xüsusən halsızlıq güclüdürsə)
Maye azlığı halsızlığı və başgicəllənməni artırır.

## Tam istirahət

-Orqanizm bu tip viruslarda enerjini sürətlə itirir
-"Bir az işləyim, keçər" yanaşması xəstəliyi uzada bilər
-Minimum 2-3 gün ev rejimi tövsiyə olunur
Yüngül qidalanma
-Şorba (toyuq, tərəvəz)
-Qaynadılmış tərəvəzlər
-Qatıq, kefir
-Ağır, yağlı, çox ədviyyəli yeməklərdən uzaq durun
Simptomatik dəstək
-Baş ağrısı varsa - sakit mühit, işıq və səsdən uzaq qalmaq
-Əzələ ağrıları üçün - ilıq duş
-Burun axıntısı yoxdursa, burun spreylərinə ehtiyac yoxdur

## Nələr edilməməlidir?

-Antibiotiklər özbaşına qəbul edilməməlidir (virus infeksiyalarında təsirsizdir)
-"Tərlədim, çıxdı" düşüncəsi ilə həddindən artıq bürünmək olmaz
-Qızdırma düşsə belə, dərhal aktiv həyata qayıtmaq risklidir

***Ayşən Vəli***

# "Tramp administrasiyası ABŞ-Azərbaycan münasibətlərində praqmatik yanaşma formalaşdırır"

"ABŞ-də hakimiyyət dəyişikliyindən sonra ümumilikdə Vaşinqtonun Azərbaycana münasibətində real fərqlər müşahidə olunur. Donald Tramp administrasiyası Bakı ilə İrəvan arasında sülh səylərini dəstəklədiyini nümayiş etdirib". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elmir Səftərov deyib. Onun sözlərinə görə, bundan əvvəlki Bayden administrasiyası dövründə isə Azərbaycana qarşı bir sıra məhdudiyyətlər tətbiq olunurdu ki, bu da iki ölkə arasındakı münasibətlərə mənfi təsir göstərən əsas amillərdən biri idi: "Donald Trampın növbəti dəfə hakimiyyətə qayıdışından sonra Amerikanın xarici siyasət prioritetlərində də dəyişikliklər müşahidə edilir. Belə ki, Azərbaycana qarşı yanaşmada strateji əməkdaşlıq və sülh təşəbbüslərinə daha praqmatik münasibət formalaşmağa başlayıb. Bu yanaşma Tramp dövründə irəli sürülən sülh ideyalarının konkret mexanizmlərə çevrilməsinə imkan yaradır. Eyni zamanda, bu proses regional nəqliyyat-kom-



munikasiya layihələrinin, xüsusilə də Zəngəzur dəhlizinin reallaşdırılması baxımından ABŞ-nin uzunmüddətli maraqlarına da cavab verir. ABŞ bu dəhliz vasitəsilə gələcək onilliklər ərzində iqtisadi və strateji fayda əldə etməyə çalışacaq. Bununla belə, ABŞ Konqresində Azərbaycana qarşı məhdudlaşdırıcı təşəbbüslərlə çıxış edən, ermənipərəst mövqedə olan dairələr hələ də mövcuddur. Bu amil ABŞ-Azərbaycan münasibətlərinin



hazırkı durumuna mənfi təsir göstərə bilər. Hərçənd bu cür təşəbbüslərin sülh danışıqlarına birbaşa ciddi təsiri olmasa da, Biden administrasiyası dövründə olduğu kimi yenidən gündəmə gəlməsi ikitərəfli əlaqələri çətinləşdirə bilər. Əgər hazırkı mərhələdə ABŞ administrasiyası Donald Tramp-ın müəyyən etdiyi xətt üzrə hərəkət etməz və Konqres fərqli, məhdudlaşdırıcı qərarlar qəbul etməyə başlayarsa, bu, mənfi ssenarilərin ortaya çıxmasına səbəb ola bilər. Azərbaycan və ABŞ arasında münasibətlər qarşılıqlı maraqlara və tərəfdaşlığa əsaslanır və bu əlaqələr hər iki tərəf üçün strateji əhəmiyyət daşıyır.

Qeyd etmək lazımdır ki, Konqresin məhdudlaşdırıcı səylərinin reallaşması Ermənistanın davranışlarına da təsir göstərə bilər. ABŞ-dakı ermənipərəst dairələrin Ermənistana verdiyi birtərəfli dəstək sülh təşəbbüslərini ləngidə və regionda gələcək riskləri artıra bilər. Ümumilikdə ABŞ-ın daxili siyasi dinamikası, administrasiyanın prioritetləri və Konqresin siyasi iradəsi Cənubi Qafqazda sülh prosesinə və Azərbaycana münasibətə birbaşa təsir göstərir. Bu baxımdan ABŞ-ın ali siyasi dairələri Donald Tramp administrasiyasının yürüdüyü siyasətə uyğun hərəkət etməli və regionda sülhə xidmət edən təşəbbüsləri ləngidə verəcək addımlardan çəkinməlidirlər".

***Ziya Hikmətoğlu***

# Cənubi Qafqaz üçün 2026-cı il - BİZİ NƏ GÖZLƏYIR?

Ukrayna münaqişəsinin qısa müddətdə aradan qalxacağı fonunda, bütövlükdə Cənubi Qafqazın, xüsusilə Azərbaycanın, Ermənistanın, Gürcüstanın əhəmiyyəti, eləcə də bu regionla bağlı müzakirələr nəzərəçarpacaq dərəcədə görünməkdədir. Cənubi Qafqazdakı proseslərlə bağlı müzakirələrdə indiki ənənəvi spekulyasiyalar diqqəti daha çox cəlb edir. Bu regionda tendensiyaların köklü şəkildə dəyişməsi ehtimalının çox az olduğu qənaəti də mövcuddur və dünyanın ən tanınmış siyasətçiləri bəzən belə hesab edirlər ki, regionda köklü bir dəyişkənlik mümkün deyil. Bununla belə, nəzərə alsaq ki, bu il Ermənistanda bir seçki kompaniyası baş tutacaq, eləcə də seçkidən yenicə çıxmış Gürcüstanda hələ də Mixail Saakaşvili kimi Qərbin bir nümayəndəsi var, deməli, hansısa dəyişiklik ehtimalı da olsa ortaya çıxır. Şübhəsiz ki, hadisələrin gedişi hələ bundan sonra bəzi proqnozları verməyə imkan verə bilər.




Bildiyimiz kimi, Ermənistanda parlament seçkiləri qarşıdan gələn ilin ən mürəkkəb tapmacalarından biri hesab olunur. Ən azından erməni cəmiyyəti özü bu seçkini tapmaca hesab edir. Çünki həmin ölkədə siyasi stratiqrafiya çox mürəkkəbdir. Bir çox regional məsələlərin məhz bu ilki seçki kampaniyasının nəticələri ilə bağlı olduğunu düşünən ermənilər də az deyillər. Bu spektr nəqliyyat və logistika kommunikasiyalarının yenidən işə salınmasından tutmuş Azərbaycanla sülh sazişinə qədər əhatəli sayılır. Ola bilsin ki, postsovet Ermənistan tarixində ilk dəfə bu qədər müəmmalı vəziyyətin yarandığı düşünülməkdədir.

İstərdik ki, Ermənistanın daxili siyasi mənzərəsi haqqında bir qədər də bəhs edək. Hadisələrin gedişatından ortaya çıxan və görünən odur ki, seçkilər özünəməxsus ideoloji xarakter daşıyacaq. Təbii ki, Ermənistan hakimiyyətinin həmin seçkiləri müharibəyə qarşı sülh mübarizəsi kimi təqdim edəcəyi də istisna edilə bilməz. Bildiyimiz kimi, Ermənistan hökumətinin "Real Ermənistan" layihəsi var. Bəli, bu layihəyə lağ edənlər, xüsusən də həmin layihəni ələ salan haylar da az deyillər. Çoxdandır ki, ermənilərin bir çoxları həmin layihəni açıq şəkildə antimilli hesab edirlər. Amma buna baxmayaraq, belə bir layihə mövcuddur və bir növ, artıq qəbul edilməkdədir. Çünki konkret qərarlar, taktiki gedişlər və hətta strateji plan bu matrisin ətrafında cərəyan edir.

İllərdir şahidi oluruq ki, Ermənistan müxalifəti birləşə bilmir. Çünki müxtəlif məqsədləri və hədəf auditoriyasını erməni müxalifəti düzgün seçə bilmir. Bəziləri, daha dəqiq desək, Robert Köçəryana, "Bizim yol" hərəkatına, "üçüncü yol"un yeniliyinə tərəf can atanlar və Arman Tatoyan kimi Moskva ilə köklü fasiləsiz əlaqədə olanlara meyillilər arasında birlik çətin ki, mümkün ola bilər. Müxalifətin zəifliyi həddən artıq emosionallıqda və konsolidasiyanın, yəni toplaşma nöqtəsinin olmamasında özünü biruzə verir. Burada hətta kilsə, dini məsələlərə münasibət də az təsir etmir. Xüsusən də erməni baş nazirin hədəfində olan kilsə ilə də bağlı fərqli yanaşmalar var. Əslində, bunun özü də parçalanmaya rəvac verən köklü bir məsələdir. Bax elə bundan da istifadə edənlərin tapılacağı istisna edilə bilməz. Üstəlik, erməni cəmiyyətində həm Rusiya, həm də Qərbə meyilli qüvvələrin olması belə hansısa birliyin yaranmasına kifayət qədər böyük maneədir. Bunu elə erməni baş nazir Nikol Paşinyan da, onun rəqibləri də, üstəlik kənardan müşahidə edənlər də yaxşı bilirlər. Elə zənn edək ki, bu ilki seçki qabağı hansısa bir birləşməyə nail ola bildilər. Sual olunur ki, bəs yaxşı, onlar seçki günündən sonra necə bir ola bilərlər? Axı seçkidən sonrakı zaman fasiləsində də Ermənistanda həyat bitməyəcək. Belə çıxır ki, Ermənistan üçün cari il, 2026-cı il təlatümlərin başlangıcı belə ola bilər. Bir sözlə, Cənubi Qafqazın haylar məskunlaşan ərazilərində hələ hansısa bir rezonans baş verə bilər və buna hazırlıqlı olmaq ən vacib məsələ hesab edilməlidir.

Regionun digər bir dövləti olan Gürcüstan üçün isə vəziyyət tamamilə başqadır. Çünki Gürcüstanda seçkilər artıq başa çatıb və təxmin edilənlər arxada qalıb. Bəli, hətta Moskva ilə substantiv dialoqa başlamaq üçün unikal imkanlar da açılıb. Bir çox politoloqların fikrinə görə, bu unikal imkanlar, təxminən 2028-ci ilin yazına qədər də hələ ola bilər. Çünki yalnız yeni seçki dövrünə daxil olmaqla hər şey, xüsusən də qeyd olunan imkanlar bitə bilər deyə düşünülür. Doğrudur, Gürcüstanla bağlı mənzərədə Mixail Saakaşvili kənarda görənlər, onun artıq kənarda olduğunu düşünənlər də az deyillər. Amma belə düşünənlər bir məqamı da unudurlar ki, Saakaşvilinin irsi yaşayır və Mişikonun əsas konsepsiyası "tanınmadan danışmaq olmaz" hesab olunur.

Gürcüstan heç də qonşu Ermənistan kimi riskli və təhlükəli durumda olmasa da, həmin o Cənubi Qafqaz ölkəsi üçün də müvafiq olan "asılı" məqamlar danılmazdır. Siyasətçilərin əksəriyyəti belə hesab edirlər ki, Gürcüstan üçün məhz 2026-cı ildə çox şey Qərbdən asılı olacaq. Hər halda, Qərbin məhz Saakaşvilinin barədə xüsusi planları olmuş olsa, bu zaman Gürcüstanda da vəziyyət gürcülərin düşündükləri kimi olmaya bilər.

Digər Cənubi Qafqaz ölkələri ilə müqayisədə, 2026-cı ildə məhz Azərbaycanın daha sabit və stabil inkişaf yoluna davam edəcəyi qəbul edilməkdə və rəqibləri tərəfindən belə etiraf edilməkdədir. Rəsmi Bakının cari ildə də daha böyük uğurlara, nailiyyətlərə imza atacağı gözlənilləndir və bu da səbəbsiz deyil. Əvvəla ona görə ki, Azərbaycan digər Cənubi Qafqaz ölkələrindən fərqli olaraq, hansısa himayəyə də eytiyac duymur, vasitəçiliyə də. Eyni zamanda, rəsmi Bakı ilə bağlı Qərbin də, Rusiyanın da hansısa bir qurması ola bilməz. Əksinə, indi enerji təminatı məsələsində məhz Azərbaycana ehtiyac duyulur. Avropanın ən qabaqcıl, ən inkişaf etmiş ölkələri Bakı nefti və qazı ilə enerji böhranına tab gətirəcəkləri qənaətindədirlər. Belə olan halda, ölkəmizə qarşı hansısa bir "xoşagəlməz addım" Qərbin qətiyyən maraqlarına xidmət edə bilməz. Bu baxımdan da cəsarətlə deyə bilərik ki, qonşu ölkələrlə bağlı düşünülənlər Azərbaycanla bağlı heç kəsin ağlına belə gələ bilməz. Həm də axı ölkəmizdə hansısa bir nifaq ocağı yoxdur ki, istər Qərb, istərsə də Rusiya ondan istifadə edə bilsin. Əksinə, bütövlükdə dünya ictimaiyyəti çox yaxşı bilir ki, bu gün regionda sülhün, sabitliyin, stabilliyin həm təminatçısı, həm qarantı, həm də qoruyucusu elə Azərbaycandır. Bu gün Azərbaycanın dünyanın bir çox ölkələri ilə yüksək səviyyəli əlaqələrini, əməkdaşlıqlarını, strateji yaxınlıqlarını elə Qərb də bilir, Rusiya da. Xüsusən də, Türkiyə kimi bir qardaş ölkə ilə olan strateji münasibətlər, tərəfdaşlıqlar fonunda ölkəmizə pis nəzərlə belə baxmağa cürət belə ediləcəyi ağıla gələn deyil. Ölkəmiz heç zaman başqa bir Cənubi Qafqaz ölkəsi kimi alət ola bilməz və Azərbaycan-Türkiyə tandemi fonunda hansısa məkrli niyyətin baş tutmayacağı indi hər kəsə bəllidir və buna görə də ölkəmizlə bağlı fikirlər, niyyətlər belə qonşu ölkələrlə eyni ola bilməz. Bu baxımdan da məhz Cənubi Qafqaz ölkəsi olan Azərbaycan üçün 2026-cı ilin tamamilə stabillik, sabitlik dövrü, hətta daha sürətli inkişaf mərhələsinin ən sürətli dövrünün başlangıcı olacağı zərrə qədər də şübhə doğura bilməz...

**İnam Hacıyev**



Elçin Bayramlı

## Uşaqlarda təhsilə maraq niyə azalıb?

***Son vaxtlar uşaqların təhsilə marağının azalması ən çox müzakirə olunan mövzulardan birinə çevrilib. Burada müxtəlif səbəblər göstərilir. Bəziləri qeyd edir ki, aztəminatlı ailələrdə uşaqların təhsil alması çətindir və əsas səbəblərdən biri budur. Lakin fikrimizcə, bu iddiaların heç bir əsası yoxdur.***

Bəli, aztəminatlı ailələrin maddi problemləri var, amma sosial-iqtisadi cəhətdən çətinlik çəkən ailələrdə böyüyən uşaqların təhsil almasına bu amilin həlledici təsiri yoxdur. Çünki Azərbaycanda ümumi orta təhsil pulsuzdur və əgər uşağın oxumağa həvəsi, öyrənməyə marağı varsa, o, rahat şəkildə təhsil ala bilər. Üstəlik, müasir dövrdə müxtəlif mənbələrdən bilik əldə etmək imkanları da kifayət qədər genişdir.

Yalnız həddindən artıq yoxsul ailələrdə müəyyən problemlər yarana bilər. Məsələn, məktəb ləvazimatlarının və ya məktəb geyimlərinin alınmasında çətinliklər ola bilər, bəzi hallarda isə uşaqlar ailələrinə maddi dəstək vermək üçün ev və təsərrüfat işlərində kömək etməyə məcbur qalırlar. Belə hallarda həmin ailələr üçün xüsusi sosial dəstək proqramlarının olması vacibdir.

Dövlətin bu istiqamətdə müəyyən proqramları var, eyni zamanda xeyriyyə cəmiyyətləri və ictimai təşkilatlar da kömək göstərə bilərlər. Bütün bunlara baxmayaraq, bu çətinliklər uşağın təhsil almaq həvəsini məhv etməməlidir. Bizim böyük şəxsiyyətlərimizin, alimlərimizin, ziyalılarımızın böyük bir hissəsi imkansız ailələrdən çıxıb, çətin şəraitdə böyüyüb, lakin məqsədləri və əzmləri sayəsində uğur qazanıblar. Əgər uşağın məqsədi varsa və valideynlər də müəyyən qədər dəstək göstərirsə, o, yaxşı oxuyacaq və təhsil alacaq.

Maddi-iqtisadi çətinliklərin bu gün uşaqların təhsilinə təsiri həlledici deyil. Uşaqları həddindən artıq komfortlu şəraitdə böyütmək də mütləq üstün nəticə vermir. Bahalı məktəblər, bahalı paltarlar və ləvazimatlar uğur üçün heç bir təminat vermir. Əsas olan uşağın daxili motivasiyası və öyrənməyə marağıdır. Əgər bu maraq yoxdursa, heç bir maddi imkan nəticə verməyəcək.

Əgər hər il orta və ali məktəblərdə keçirilən imtahanların nəticələrinə baxsaq görərik ki, daha çox bal toplayan şagirdlərin böyük əksəriyyəti daha aşağı təminatlı ailələrdəndir və adi məktəblərdə təhsil alıblar. Bahalı özəl məktəblərdə təhsil alan imkanlı təbəqənin övladlarının çoxu isə onlar qədər nəticə əldə edə bilmir.

Bu baxımdan, valideynlərin uşaqların yalnız görünüşünə və bahalı əşyalarına deyil, onların düşüncəsinə, maraqlarına və mənəvi inkişafına da diqqət yetirməsi çox vacibdir.

Əlbəttə, aztəminatlı ailələrin təhsil alan uşaqlarının müəyyən çətinlikləri var, lakin onlara da həm dövlət, həm də xeyriyyə fondları tərəfindən dəstək verilir- məktəb geyimləri, çanta və digər ləvazimatlarla təmin olunurlar. Əgər biz tam imkansız ailələrə dəstək göstərsək və eyni zamanda uşaqlarda təhsilə maraq formalaşdıra bilsək, cəmiyyətimiz üçün daha sağlam və savadlı nəsil yetişdirə bilərik.

Hər bir halda bu həqiqəti qəbul etməliyik- uşağın təhsilə marağında onun kasıb ya da varlı ailədən olması heç bir roy oynamır. Əgər valideyn uşağa normal tərbiyə veribsə, ona biliyin vacibliyini aşılaya bilibsə və uşaqda əzm və məqsəd formalaşdıra bilibsə, heç şübhəsiz ki, bu uşaq təhsildə yaxşı nəticələr əldə edəcək. Əgər bunlar yoxdursa, heç bir maddi imkanın gücü uşaqda təhsilə həqiqi həvəs və maraq oyatmaq mümkün deyildir. Uşaqlarımıza diqqət göstərmək, vaxt ayırmaq, ona kömək etmək, ona həyatı öyrətmək daha vacibdir, nəinki onu maddi nemətlərlə maksimum təmin etməyə çalışmaq. Problem uşaqlarda deyil, bizdədir, bizim düşüncəmizdə. Biz sağlam düşüncə ilə yaşasaq, sağlam da gələcək formalaşdıracağıq.

# Adı vahiməli, özü incə dərd: vərəm



Dünya əhalisinin təxminən dörddə birinin vərəm bakteriyalarına yoluxduğu təxmin edilir. Vərəm ən çox ağciyərlərə təsir edən bakteriyaların yaratdığı yoluxucu bir xəstəlikdir. Vərəmli insanlar öskürdükdə, asqırdıqda və ya tüpürdükdə xəstəlik yayıldığı üçün xəstələrin müalicə dövründə izolyasiyası vacibdir. Lakin vərəm qarşısı alına və müalicə edilə bilən xəstəlikdir.

Ümumiyyətlə, vərəm infeksiyası olan insanlar özlərini xəstə hiss etmirlər və yoluxucu deyillər. Körpələr və uşaqlar yoluxduqları təqdirdə xəstəliyin inkişaf riski daha yüksəkdir, çünki onların müalicə və izolyasiyası nisbətən məşəqqətli olur. Vərəm xəstəliyi adətən antibiotiklərlə müalicə olunur və müalicə olmasa ölümcül ola bilər. Lakin unutmaq lazım deyil ki doğru müalicə aparıldığı təqdirdə vərəm qorxulu və ölümcül olmur.

Bəzi ölkələrdə vərəmin qarşısını almaq üçün körpələrə və ya kiçik uşaqlara Basil Kalmet-Gerin (BCG) peyvəndi vurulur. Peyvənd vərəmdən ölümlərin qarşısını alır və uşaqları vərəmin ağır formalarından qoruyur. Əgər səhhətinə diqqət etməzsə inan orqanizmindəki müəyyən xəstəliklər də insanın vərəm xəstəliyi riskini artıra bilər. Diabet (yüksək qan şəkəri), zəifləmiş immun sistemi (məsələn, HİV), qidalanma çatışmazlığı, tütün istifadəsi və spirtdən mütəmadi istifadə insanın vərəm xəstəliyi ilə mübarizə sistemini zəiflədir. Vərəm xəstəliyi bakteriyalar bədəndə çoxaldıqda və müxtəlif orqanlara təsir etdikdə baş verir. Vərəm simptomları bir neçə ay ərzində yüngül ola bilər, buna görə də bilmədən vərəmi başqalarına yaymaq mümkündür. Simptomlar bədənin hansı hissəsində vərəmin olmasından asılıdır. Vərəm adətən ağciyərlərə təsir etsə də, böyrəklərə, beyinə və onurğaya da ciddi zərər verə bilər. Vərəm xəstəliyi olan bəzi insanlarda heç bir simptom yoxdur, lakin yenə də vərəmi yaya bilər. Əgər uzunmüddətli öskürək (bəzən qanlı), sinə və kürək ağrısı, zəiflik, yorğunluq, çəki itkisi, qızdırma və gecə tərləmələri varsa vərəmə yoluxmuş ola bilərsiniz.

Vərəm üçün erkən müalicə xəstəliyin yayılmasının qarşısını almağa və sağalma şansınızı artırmağa kömək edə biləcəyi üçün uzun müddət davam edən öskürək, qızdırma və izah olunmayan çəki itkisi kimi simptomlarınız varsa, mütləq tibbi yardım alın. Əgər risk qrupunuz artıbsa, məsələn, HİV-ə yoluxmusunuzsa və ya evinizdə və ya iş yerinizdə vərəm olan insanlarla təmasdasınızsa, vərəm üçün mütləq müayinədən keçin.

Vərəmin profilaktik müalicəsi infeksiyanın xəstəliyə çevrilməsinin qarşısını alır. Vərəminiz varsa, mütləq gigiyena qaydalarına əməl edin, o cümlədən digər insanlarla təmasdan çəkinin və maska taxın, öskürərkən və ya asqırarkən ağzınızı və burnunuzu örtün, bəlğəmi və istifadə olunmuş salfetləri düzgün şəkildə utilizasiya edin, qidalanama zamanı istifadə etdiyiniz qabları ailə üzvlərinin istifadəsinə verməyin.

Ümumdünya Səhiyyə Təşkilatı vərəm əlamətləri və simptomları olan bütün insanlarda ilkin diaqnostik testlər kimi sürətli diaqnostik testlərin istifadəsini tövsiyə edir. ÜST tərəfindən tövsiyə edilən sürətli diaqnostik testlərə biomarker əsaslı tibbi yardım nöqtəsi testləri və molekulyar analizlər daxildir. Bütün bu testlər dəqiqdir və nümunə toplandıqdan sonra 48 saat ərzində müalicəyə istiqamət vermək üçün vacibdir. Bu testlərin istifadəsi vərəmin, xüsusilı dərmana davamlı vərəmin erkən aşkarlanmasında böyük irəliləyişlərə səbəb olur.

Dərmanlara davamlı vərəm də daxil olmaqla, vərəm formalarının, eləcə də HİV ilə əlaqəli vərəm və uşaq vərəminin diaqnozu bəzən mürəkkəb ola bilər. ÜST xəstəliyi erkən və dəqiq aşkar etmək şansını artırmaq, bu vərəm formalarını aşkar etmək üçün xüsusi nümunə növlərini, testləri və strategiyaları tövsiyə edir, dünya ölkələrində bununla bağlı təbliğat aparır. Vərəm xəstəliyi xüsusi antibiotiklərlə müalicə olunur. Müalicə həm vərəm infeksiyası, həm də xəstəlik üçün tövsiyə olunur. Ən çox istifadə edilən antibiotiklər rifampisin, izoniazid, pirazinamid və etambutoldur. Effektiv olması üçün dərmanları 4-6 ay ərzində gündəlik qəbul etmək lazımdır. Dərmanları erkən və ya tibbi məsləhət olmadan dayandırmaq təhlükəlidir, çünki bu, bədəndəki vərəm bakteriyalarının antibiotiklərə qarşı müqavimət göstərməsinə səbəb ola bilər. Standart dərmanlara cavab verməyən vərəm dərmana davamlı vərəm adlanır və müxtəlif xüsusi dərmanlarla diqqətli müalicə tələb edir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Dərmanlara davamlılıq vərəm dərmanlarının düzgün istifadə edilməməsi, həkim tərəfindən səhv reseptlərin təyin edilməsi, keyfiyyətsiz dərmanların qəbulu və ya xəstələrin müalicəsini vaxtından əvvəl dayandırması nəticəsində yaranır. Bu vərəm növü vacib vərəm dərmanı olan rifampisin və izoniazidlərə cavab verməyən bakteriyaların yaratdığı bir vərəm formasıdır. Dərmana davamlı vərəm daha bahalı və daha çox yan təsirə malik olan digər dərmanlardan istifadə etməklə müalicə edilə və sağala bilər. Vərəm dünyanın hər yerində baş verir. 2024-cü ildə ən çox vərəmə yoluxma halı Cənub-Şərqi Asiya bölgəsində (34%), ardınca Qərbi Sakit Okean bölgəsində (27%) və Afrika bölgəsində (25%) qeydə alınıb. Yeni vərəm yoluxmalarının təxminən 87%-i vərəmin yüksək olduğu 30 ölkədə baş verib və qlobal ümumi sayın üçdə ikisi Hindistanda (25%), İndoneziyada (10%), Filippində (6,8%), Çində (6,5%), Pakistanda (6,3%), Nigeriyada (4,8%), Konqo Demokratik Respublikasında (3,9%) və Banqladeşdə (3,6%) qeydə alınıb. İlk beş ölkə qlobal ümumi sayın 55%-ni təşkil edib.

Qlobal miqyasda vərəmdən müalicə alan insanların və onların ailələrinin təxminən 50%-i ciddi maliyyə problemi ilə üzləşir. İmmun sistemi zəif olan, məsələn, HİV, qidalanma çatışmazlığı, diabet xəstələri və ya tütün istifadə edən insanların xəstələnmə riski daha yüksəkdir. Qlobal miqyasda 2024-cü ildə qidalanma çatışmazlığı ilə əlaqəli təxminən 0,97 milyon, diabetlə əlaqəli 0,93 milyon, spirtli içki istifadəsi ilə əlaqəli 0,74 milyon, siqaret çəkmə ilə əlaqəli 0,70 milyon və HİV infeksiyası ilə əlaqəli 0,57 milyon yeni vərəmə yoluxma halı qeydə alınıb.

Dünya ölkələri, qlobal təşkilatlar vərəmə son qoymaq üçün səhiyyə sisteminə ciddi investisiyalar yatırır. 2023-cü ildə BMT-nin yüksək səviyyəli vərəm iclasında razılaşdırılmış qlobal hədəflərə çatmaq üçün 2027-ci ilə qədər vərəmin qarşısının alınması, diaqnozu, müalicəsi və qayğısı üçün hər il 22 milyard ABŞ dolları tələb olunur. Hər nə qədər adı vahiməli olsa da vərəm müalicə edilə bilən xəstəlikdir və doğru dərmanların tətbiqi zamanı ölüm halı qeydə alınmır. Problem dərmanların təminatında, qidalanma səviyyəsinin aşağı olmasında və vərəmdən başqa paralel xəstəliklərin olmasındadır.

***Lalə Mehralı***

# Maduronun "oğurlanması" dünyada xaos və anarxiya yarada bilər



Dünyanın müxtəlif bölgələrində amansız, dağıdıcı müharibələr fonunda diqqətçəkən hadisələrdən biri də ABŞ prezidenti Donald Trampın göstərişi ilə Venesuela prezidenti Nikolas Maduronun Karakasda öz iqamətgahında saxlanılaraq ABŞ-a aparılmasıdır. Bu hadisə dünyada çox böyük çaxnaşma yaratdı, əksər ölkələr "insan oğurluğu"nu qınasa da, haqq qazandıranlar da oldu. ABŞ rəsmiləri bu prosesi narkotik ticarəti və korrupsiya ilə bağlı ittihamlarla əsaslandırırlar. ABŞ vitse-prezidenti Cey Di Vens sosial şəbəkə paylaşımında baş verənləri "həqiqətən təsiredici əməliyyat" adlandıraraq bildirib ki, Tramp Madurona narkotik ticarətini dayandırmaq və Vaşinqtonun "oğurlanmış" hesab etdiyi nefti geri qaytarmaq üçün dəfələrlə imkan verib. Vens onu da bildirib ki, Maduro indi Trampın dediyini həyata keçirdiyini anlayan ən sonuncu şəxsdir və Karakasda sarayda yaşamaq ABŞ-da narkotik cinayətlərinə görə məsuliyyətdən yayınmağa imkan vermir. ABŞ-ın Baş prokuroru Pem Bondi bildirib ki, Maduro və həyat yoldaşı narkoterrorizm, silah saxlama və narkotik qaçaqmalçılığında ittiham olunurlar. Pem Bondin sözlərinə görə, Maduro və ona yaxın şəxslər uzun illər ərzində beynəlxalq narkotik şəbəkələri ilə əməkdaşlıq edərək ABŞ ərazisinə böyük həcmdə narkotik maddələrin daşınmasında iştirak ediblər. İddia olunur ki, bu fəaliyyətlər terrorçu və silahlı qruplaşmalarla əlaqəli şəkildə həyata keçirilib və ABŞ-nin milli təhlükəsizliyinə ciddi təhdid yaradıb. Pam Bondi bildirib ki, sözügedən ittihamlar çərçivəsində Maduro ailəsinin üzvləri və Venesuelanın bir sıra yüksəkvəzifəli rəsmiləri də araşdırma predmetidir. ABŞ Prezidenti Donald Tramp ölkəsinin Venesueladakı əməliyyatı ilə bağlı bildirib ki, ölkəsi əməliyyatı dörd gün təxirə salmaq məcburiyyətində qalıb: "Əsgərlərdən eşitdim ki, bu, dünyanın heç bir ölkəsinin edə bilməyəcəyi bir manevrdir. Mən sözün əsl mənasında bunu canlı izlədim, sanki televiziya serialına baxırdım. Bu, inanılmaz idi". Tramp həmçinin əməliyyat zamanı heç bir itki vermədiklərini qeyd edib: "Bir neçə yaralı var, amma ölən yoxdur".

## Dünya ölkələri narahatdır

Diqqətçəkən məqamlardan biri ondan ibarətdir ki, Venesuela lideri Nikolas Maduro devrilməzdən bir neçə gün öncə ABŞ-dən Türkiyəyə mühacirət etməklə bağlı təklif alıb. Lakin Maduro təklifi qətiyyətlə rədd edib. ABŞ senatoru Lindsi Qrem məlumatı təsdiqləyib. O, Donald Trampın təyyarədə jurnalistlərə dediyi "Venesuela prezidenti Nikolas Maduro bu gün Türkiyədə ola bilərdi, amma o, Nyu-Yorkdadır (həbsdədir)", - ifadəsinin real əsasını xatırladıb. Senator Qrem bildirib ki, Venesuela lideri Trampa və ABŞ ordusuna qarşı çıxmaq qərarına gəlib və indi o həbsdədir. Məlumat üçün onu vurğulamaq lazımdır ki, "New York Times" qəzeti 23 dekabrda ABŞ hakimiyyətinin Maduroya istefa vermək və Türkiyəyə getmək imkanı təklif etdiyini, lakin Maduronun bundan imtina etdiyini yazıb. Ümumilikdə mənzərə heç də ürəkaçan deyil. Çünki bir ölkənin xalq tərəfindən seçilmiş prezidentini digər ölkə bəlli maraqları naminə həbs edir. Bu hal president ola biləcəyi təhlükəsi var. Çünki nisbətən hərbi, siyasi gücə malik dövlətlər başaq bir zəif dövləti sıradan çıxara bilər. Deyək ki, sabah Çin Tayvana hücum edə bilər və yaxud Rusiya Moldavaya, ziddiyyətli münasibətlərdə olduğu Ermənistanan hücumlar təşkil edə bilər. Avropadakı böyük güclər ipə- sapa yatmayan Macarıstana, Serbiyaya D.Trampsayağı əməliyyatlar təşkil edə bilər. Təbii ki, bütün bunlara orta əsrlərə qayıdış deməkdir. Hansı ki, o dövrdə böyük imperiyalara var-dövlətlərini artırmaq, sərhədlərini genişləndirmək üçün digər ərazilərə hücumlar təşkil edir, əraziləri işğal edir, minlərlə, on minlərlə insanları öldürürdülər. Müasir dövrdə belə halların yaşanması çox təhlükəlidir. Bunu nəzərə alan bəzi dövlətlər təcili olaraq BMT Təhlükəsizlik Şurasının toplantının keçirilməsini tələb edirlər. Artıq Kolumbiyanın çağırışına əsasən Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası ABŞ-ın Venesuelaya hücumu və prezident Nikolas Maduronun devrilməsi ilə əlaqədar yanvarın fövqəladə iclas keçirəcək. Braziliya prezidenti Lula da Silva ABŞ-ın addımını "qəbuledilməz xəttin aşılması" kimi qiymətləndirib. O bildirib ki, bu hadisə Latın Amerikası və Karib hövzəsi ölkələrinin siyasətinə müdaxilənin ən qaranlıq dövrlərini xatırladır və region üçün təhlükəli presedent yaradır. Venesuela xarici işlər naziri İvan Gil ABŞ-ni ölkəsinə qarşı hərbi təcavüz etməkdə ittiham edib. Venesuela Respublikasının Xarici İşlər Nazirliyinin rəsmi açıqlamasına görə, zərbələr Karakasda, eləcə də Miranda, Aragua və La Guaira ştatlarında mülki və hərbi hədəfləri hədəfə alıb. Nazirliyin yaydığı sənəddə ABŞ-nin hərəkətlərinin BMT Nizamnaməsinin, xüsusən də dövlət suverenliyi, hüquqi bərabərlik və güc tətbiqinin qadağan edilməsi prinsiplərinin kobud şəkildə pozulması olduğu bildirilib. Karakas qeyd edib ki, hadisə, xüsusən də Latın Amerikası və Karib dənizində beynəlxalq sülh və sabitliyə təhdid yaradır və milyonlarla insanın həyatını təhlükəyə atır.

## ABŞ bu əməliyyatla həm Rusiyaya, həm də Çinə öz gücünü nümayiş etdirməyə çalışıb

ABŞ-nin Venesuelada əməliyyat keçirməsi təsadüfi deyil. Tramp administrasiyası neftlə zəngin Venesuelanı ələ keçirib, öz maraqlarını həyata keçirməyi planlaşdırıb. Bu əməliyyatla həm Rusiyaya, həm də Çinə öz gücünü nümayiş etdirməyə çalışıb. Təsadüfi deyil ki, Tramp keçirilən əməliyyatdan sonra keçirdiyi mətbuat konfransında dönə-dönə ölkəsinin fenomen hərbi gücə malik olmasından danışdı. Bildirdi ki, belə hərbi gücə malik heç bir dövlət ola bilməz.

Nəzərə almaq lazımdır ki, Venesuela dünyada neftlə zəngin aparıcı dövlətdir. Bu ölkə 304 milyard barreldən çox təsdiqlənmiş neft ehtiyatı ilə Səudiyyə Ərəbistanını da geridə qoyaraq dünyada birinci yerdə dayanır. Bu nəhəng sərvətin mövcud bazar qiymətləri ilə dəyəri 20 trilyon dollara yaxın sərvət olaraq qiymətləndirilir ki, bu da ölkəni qlobal enerji xəritəsinin mərkəzinə çevirir. Görünən ondan ibarətdir ki, dünyanın əksər ölkələri Maduronun oğurlanmasından narahat olsalar da, ABŞ rəsmiləri bundan məmnundurlar. Ancaq nəzərə almaq lazımdır ki, ABŞ İraqa, Əfqanıstana, Liviyaya daxil olarkən də "uğurları"ndan çox danışırdılar. Ancaq az sonra sözügedən ölkələrdə böyük itkilər verərək qaçmağa məcbur oldular. Ona görə də, ABŞ Venesuela əməliyyatının sevincini uzun müddətdə yaşaya bilməyəcək. Əminliklə demək olar ki, üzləşdiyi Əfqanıstan fəlakətini Venesuelada da yaşamalı olacaq.

***İLHAM ƏLİYEV***

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Ömrü qısaldan qidalar açıqlandı - siyahıda nələr var?



**İnsan sağlamlığına birbaşa təsir edən əsas amillərdən biri qidalanmadır. Elmi araşdırmalar sübut edir ki, uzun müddət düzgün olmayan qidalarla qidalanmaq təkcə xəstəliklərə deyil, eyni zamanda insan ömrünün qısalmasına da səbəb olur. Xüsusilə müasir dövrdə geniş yayılmış bəzi qida növləri sağlamlıq üçün ciddi risk daşıyır. SİA mövzu ilə bağlı araşdırma edib.**

Ən təhlükəli qida qruplarından biri ultra-emal olunmuş qidalardır. Bu qidalara fast-food məhsulları, paketlənmiş şirniyyatlar, çipslər, hazır pizzalar, kolbasa və sosis kimi sənaye üsulu ilə hazırlanan məhsullar daxildir. Onların tərkibində çoxlu miqdarda konservantlar, dadlandırıcılar, trans yağlar, şəkər və duz olur. Araşdırmalar göstərir ki, bu cür qidalar ürək-damar xəstəlikləri, piylənmə, şəkərli diabet və bəzi xərçəng növlərinin riskini artırır. Uzunmüddətli istifadə isə erkən ölüm ehtimalını yüksəldir.

Şəkərli içkilər və yüksək şəkər tərkibli qidalar da ömrü qısaldan əsas faktorlar sırasındadır. Qazlı sular, enerji içkiləri, paketlənmiş meyvə şirələri və şirniyyatlar qan şəkərini sürətlə yüksəldir, maddələr mübadiləsini pozur və insulin müqavimətinə səbəb olur. Bu da zamanla 2-ci tip diabet, ürək xəstəlikləri və qaraciyər yağlanması kimi problemlərlə nəticələnir. Mütəmadi şəkərli içki qəbul edən insanlarda erkən ölüm riski daha yüksək olur.

Rafinə edilmiş karbohidratlar da sağlamlıq üçün təhlükəlidir. Ağ çörək, ağ düyü və lifdən məhrum edilmiş un məmulatları orqanizmdə tez həzm olunur və qan şəkərində kəskin dalğalanmalar yaradır. Bu isə həm diabet, həm də ürək-damar xəstəliklərinin yaranmasına zəmin yaradır. Uzun illər bu cür qidalarla qidalanmaq ömrün keyfiyyətini və müddətini azalda bilər.

Emal olunmuş ət məhsulları - kolbasa, sosis, bekon və hisə verilmiş ətlər - tərkibində olan nitratlar və yüksək duz səbəbindən xüsusilə təhlükəlidir. Bu maddələr damarların zədələnməsinə, qan təzyiqinin artmasına və xərçəng riskinin yüksəlməsinə səbəb ola bilər. Dünya Səhiyyə Təşkilatı emal olunmuş ətləri kanserogen məhsullar siyahısına daxil edib.

Həddindən artıq duzlu və yağlı qidalar da insan ömrünə mənfi təsir göstərir. Çox duz qan təzyiqini artırır, bu isə insult və infarkt riskini yüksəldir. Doymuş və trans yağlarla zəngin qidalar isə xolesterol səviyyəsini artıraraq damarların tutulmasına səbəb olur. Bu proseslər illər ərzində yığılıb ciddi sağlamlıq problemləri yaradır.

Ömrü qısaldan qidalar adətən süni şəkildə emal olunmuş, tərkibi təbii olmayan, şəkər, duz və zərərli yağlarla zəngin məhsullardır. Bu qidaların mütəmadi istehlakı bədəni zəiflədir, xroniki xəstəliklərin yaranmasını sürətləndirir və həyat müddətini azaldır. Sağlam və uzun ömür üçün əsas şərt balanslı qidalanmaq, təbii məhsullara üstünlük vermək və zərərli qidaları minimuma endirməkdir.

*Günay Hacıyeva*

# Dövlət borcumuz açıqlandı



2025-ci il 1 dekabr tarixinə Azərbaycan Respublikasının ümumi dövlət borcunun həcmi 25 milyard 272,7 milyon manata bərabər olub. SİA Maliyyə Nazirliyinə istinadla xəbər verir ki, bu, 2025-ci il üzrə proqnozlaşdırılan ÜDM-in 19,5 faizini təşkil edir. Məcmu dövlət borcunun 8 milyard 195,2 milyon manatı xarici dövlət borcunun, 17 milyard 77,5 milyon manatı daxili dövlət borcunun payına düşür.

## ELAN

Qəzet fəaliyyəti təşkili yalnız qəzet fəaliyyətinin təsisi deyil, sabah namine üfüq və gələcək üçün hazırlıq mərhələsi kimi nəzərdə tutulub. Bu yol, müxtəlif yanaşmaların ayrıldığı, lakin gənc jurnalistikanın öz müstəqil yolunu tapmalı olduğu bir mərhələdə xüsusi əhəmiyyət daşıyır. Üfüq gənc və yeni dövr media qaydalarını formalaşması, formalaşma dövrü mühüm amilə çevriləcəyini şərtləndirir.

Bu çərçivədə, qəzetin universitetlərdə təsisi təşkili prosesinin təşkil arzusunda olan fəal və təşəbbüskar gənclər axtarılır. Media sahəsinə marağı olan, təşkilati işlərdə aktivlik göstərmək istəyən, komanda ilə işləmə bacarığına malik tələbələr müraciət edə bilər.

Maraqlanan gənclərdən xahiş olunur ki, əlaqə məlumatları vasitəsilə bizimlə əlaqə saxlasınlar.

***Əlaqə məlumatları: +994 (051)-631-03-25 - "GG Company" Üfüq Qəzeti***

# Qızıl və gümüşün qiyməti KƏSKİN ARTDI



ABŞ-ın Venesuela Prezidenti Nikolas Maduronu ələ keçirməsindən sonra artan geosiyasi gərginlik investorları təhlükəsiz "liman"lara yönəldib. Qızıl və digər qiymətli metallar həftənin ilk günündə kəskin şəkildə artıb. Musavat.com xəbər verir ki, spot qızıl bazar ertəsi təxminən 2% artaraq son həftənin ən yüksək səviyyəsi olan 4420 dollara çatıb. Hazırda qızılın bir unsiyası 1,71% artaraq 4404 dollara satılır.

Unsiya qızılın artımı daxili bazarda da öz əksini tapıb. Qram qızıl həftənin ilk günündə 2% artaraq təxminən 242 manata çatıb. Günün sonlarında qram qızıl 1,72% artaraq 240 manata satılıb.

Faizsiz aktivlər aşağı dərəcələri və artan qeyri-müəyyənlik fonunda investorların diqqət mərkəzindədir, spot gümüş 4,1% artaraq 75,50 dollara çatıb. Gümüş 29 dekabrda 83,62 dollarlıq rekord səviyyəyə çatmışdı. Keçən ili 147% artımla başa vuran gümüş tarixdəki ən güclü göstəricilərindən birinə çatıb. Qiymətlərin artması ABŞ tərəfindən gümüşün kritik mineral kimi təyin edilməsi, artan sənaye və investisiya tələbi və təklif çatışmazlığı ilə əlaqələndirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 1550**